# BRUSELYOZ



Brucella abortus
1
Mucosal membranes
2
PMNs
Macrophages
DCs
3
Lymph nodes
4
Lungs
Liver
Spleen
Bone marrow
5
Infected trophoblasts
6
Abortion
7
8
9
Unpasteurized dairy products
10

Bruselyoz kənd təsərrüfatı və vəhşi heyvanların, eləcə də insanların, xroniki gedişli yoluxucu xəstəliyidir. Balasalma və sonun ləngiməsi ilə xarakterizə olunur, lakin çox fərqli klinik əlamətlər də müşahidə olunur.
Törədicisi. Brusella cinsindən olan bakteriyalardır, bunların məlum olan 6 növündən 4-ü kənd təsərrüfatı heyvanlarında xəstəlik törədir. İnsanlar üçün daha təhlükəli Brusella melitensis növü sayılır (əsasən qoyunlarda xəstələyin törədicisidirlər). Qaramalda br. abortus, donuzlarda br.suis, qoyunlarda br.ovis, itlərdə br.canis, gəmiricilərdə isə br. neotome növü xəstəliyi törədirlər. Bu tiplər bir-birindən morfoloji cəhətcə seçilmirlər, onların hamısı polimorf, kürəcik, çubuq və oval formada olurlar, Brusella tiplərindən heç biri spor əmələ gətirmir, hərəkətsizdirlər. Brusellalar endotoksin əmələ gətirən mikroorqanizmlərə aiddirlər, orqanizmdə retikuloendotelial sistem hüceyrələrində və hüceyrədən kənarda parazitlik edirlər.

**Epizootologiyası.** Xəstəlik törədicisinin əsas mənbəyi xəstə və bruselladaşıyıcı heyvanlardır. Onlardan həssas sağlam orqanizmlərin yoluxması ətraf mühit keçiriciləri vasitəsilə (yem, su, əşyalar, otlaq və s.) və ya birbaşa kontakt yolu ilə (məsələn, cütləşmə zamanı) baş verir. İnsanlar xəstə heyvanlardan və ya onların zərərsizləşdirilməmiş məhsullarından istifadə edərkən yoluxurlar. Brusellalar giriş qapısından limfa vasitəsilə orqanizmə yayılır.

**İmmunitet.** Həmişə qeyri-sabitdir və asanlıqla yüksək doza ilə pozula bilər. Yaranan immunitet iki fazadan ibarətdir. Əvvəlcə infeksion və ya qeyri-steril immunitet, sonra isə postinfeksion və ya steril immunitet inkişaf edir.
Klinik əlamətləri. Əksər hallarda heyvanlarda xəstəlik latent (gizli) keçir. Bruselyozda qeyd olunan xarakterik əlamət balasalmadır. Qaramalda çox vaxt boğazlıqdan 4 ay sonra müşahidə olunan balasalmalar baş verir. Balasalmadan sonra əksər heyvanlar dölsüzləşir (mayalanma xassəsi itir). Erkək heyvanlarda orxit və epididimit inkişaf edir. Qoyunlarda balasalma boğazlığın 4-5-ci ayında, donuzlarda isə həm birinci, həm də ikinci yarısında baş verə bilər, atlarda boyunun arxasında bursitlər inkişaf edir, şimal marallarında balasalma qaramalda olduğu kimi baş verir.
Diaqnozu. Diaqnoz epizootoloji analizin nəticələrinə, klinik və laborator müayinələrinə əsasən qoyulur. Törədicinin alınması həlledici vasitədir. Allerji və seroloji müayinələrin nəticələrinin çox böyük əhəmiyyəti vardır, bu məlumatlar xüsusən xəstəliyin yayılma dərəcəsinin və ona qarşı kompleks tədbirlər sisteminin müəyyən olunması üçün müstəsna əhəmiyyət daşıyırlar

Diaqnozu. Diaqnoz epizootoloji analizin nəticələrinə, klinik və laborator müayinələrinə əsasən qoyulur. Allerji və seroloji müayinələrin nəticələrinin çox böyük əhəmiyyəti vardır, bu məlumatlar xüsusən xəstəliyin yayılma dərəcəsinin və ona qarşı kompleks tədbirlər sisteminin müəyyən olunması üçün müstəsna əhəmiyyət daşıyırlar.

Kənd təsərrüfatı heyvanlarının bruselyozunun laborator diaqnostikasında heyvanın növündən asılı olaraq istifadə olunan seroloji və allerji reaksiyalar müxtəlif ola bilər.

Profilaktika və mübarizə vasitələri. Əsas profilaktik tədbirlər təsərrüfata törədicinin kənardan gətirilməsinin qarşısını almağa yönəldilməlidir. Çox vaxt xəstəliyin törədicisi yeni alınan heyvanlar vasitəsilə daxil olduğundan belə heyvanlara ciddi nəzarət edilməlidir. Törədici təsərrüfata həmçinin yem vasitəsilə də gətirilə bilərXəstə heyvanlarla birlikdə suvarma və ya otlama zamanı da yoluxma mümkündürXəstəlik baş verdikdə təsərrüfata karantin qoyulur, tədbirlər planı müəyyən edilir. Ocağın söndürülməsi üçün ən etibarlı üsul - heyvanların hamısının təcili kəsimə verilməsi, qüvvədə olan təlimata uyğun olaraq emalı və təsərrüfat dezinfeksiya edilir. Bruselyozun spesifik profilaktikası üçün 19 saylı və Rev-1 ştammlarından hazırlanmış uzun müddətli immunitet yaradan vaksinlər tətbiq olunur